# “Tour d'Azerbaidjan-2016”nın 2-ci mərhələsinin qalibi Azərbaycan idmançısı Maksim Averin oldu




Azərbaycanın Elit yığmasının və “Synergy Baku Cycling Project” kontinental komandasının üzvü, ölkəmizi Rio-2016 Yay Olimpiya Oyunlarında təmsil edəcək Maksim Averin Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı “Tour d'Azerbaidjan-2016” veloyürüşünün 2-ci mərhələsinin qalibi olub. O, paytaxt Bakıdan İsmayıllıyadək olan 186,5 km məsafəni hamıdan tez qət edib. Marşrutu 4 saat, 29 dəqiqə 45 saniyəyə başa vuran Averin bununla da finişi onunla eyni vaxtda keçən 6 nəfərlik qrupda hamını qabaqlayıb. Avstriyanın “Felbermayr” klubunun üzvü, ötən mövsümü “Synergy Baku”nun heyətində keçirən Markus Eybeger finişə 2-ci, İsveçrənin “Roth” pro-kontinental komandasının üzvü Alberto Çeçin isə 3-cü çatıb.

“Synergy Baku”nun digər üzvlərinə gəlincə, Matey Müqerli 9-cu, Matiya Kvasina 13-cü, Kiril Pozdnyakov isə 16-cı olub. Bu nəticə “Synergy Baku”ya komanda hesabında 1-ci yerə yüksəlməyə imkan verib. Hazırda təmsilçimiz ən yaxın izləyicisi Avstriyanın “Felbermayr” klubunu 1 dəqiqə 1 saniyə qabaqlayır. Ümumi təsnifatda Maksim Averin 4-cüdür.

2 mərhələdən sonra ümumi təsnifatın lideri üçün nəzərdə tutulan mavi rəngli “Synergy Group” köynəyini İsrailin “Cycling Academy Team” klubunun üzvü Giliom Buavin ələ keçirib. O həmçinin ən yaxşı sprinter kimi yaşıl rəngli “SOCAR köynəyinə də yiyələnib. İtaliyanın “Unieuro Wilier” komandasının nümayəndəsi Mauro Finetto ən yaxşı dağ velosipedçisi kimi qırmızı rəngli “AZAL” köynəyinə, Rusiyanın pro-kontinental “Gazprom-Rusvelo” komandasının velosipedçisi İldar Arslanov isə ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli “Ataholding” köynəyinə sahib çıxıb.

Qaliblərə mükafatları veloturun təşkilat komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov, Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov və İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov təqdim ediblər.

Bu gün keçirilən 3-cü mərhələdə iştirakçılar saat 10:30-da Qəbələ Şəhər İcra Hakimiyyətinin qarşısından start götürməklə Oğuz və Şəki rayonlarının ərazisindən keçəcəklər və 177,2 km məsafə qət etdikdən sonra bağlanğıc nöqtədə də mərhələni başa vuracaqlar.